# Qardaşlıq rəmzi “Azərbaycan” məhəlləsində həyat yenidən canlanır



***Azərbaycan Prezidenti İlham Əliyevin Kahramanmaraş şəhərinə səfəri şübhəsiz ki, 2023-cü il zəlzələsindən sonra şəhərin yenidən qurulmasında və "Azərbaycan" məhəlləsinin inşasında iştirak etmək məqsədi daşıyırdı. Bu hadisə bir daha sübut etdi ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır.***

Dost, qardaş və strateji müttəfiq olan bu iki dövlət həm çətin, həm də xoş günlərdə bir-birinə dayaq olur. Kahramanmaraşda inşa edilən "Azərbaycan" məhəlləsi ölkəmizin qardaş köməyinin və mənəvi töhfəsinin simvoludur.

Bildiyiniz kimi, 2023-cü il fevralın 6-da baş vermiş dağıdıcı zəlzələ Türkiyənin geniş ərazilərini əhatə etdi. Bu fəlakət nəticəsində 50 mindən çox insan həyatını itirdi, yüzlərlə yaşayış məntəqəsi isə tamamilə yerlə bir oldu.

Həmin ağır günlərdə dərhal yardım əlini uzadan Azərbaycan Türkiyənin xilasetmə işlərində iştirak etdi və zərərçəkmiş bölgələrin bərpasında fəal rol oynadı.

Azərbaycan-Türkiyə münasibətləri bu gün dünyada nadir nümunələrdən biridir. Bu səfər isə həmin münasibətlərin, qarşılıqlı hörmətin və əsl qardaşlığın təzahürü kimi dəyərləndirilməlidir.

**Oqtay QASIMOV,**
**politoloq.**

Respublika.- 2025.- 20 iyun (№ 125).- S.5.